"Baku Crystal Hall"da keçirilən və AzTV kanalı ilə yayımlanan oyunda əvvəlcə sentyabr ayında keçirilmiş 3 oyunun qaliblərinə – "Kapital bank", "Norm sement" və "Ağdaş"a rəqib olacaq komanda seçilib. Bu məqsədlə finala çıxmamış komandalar arasında şans oyunu keçirilib və "Romantik" bu oyunda qalib gəlib. Beləliklə, 4 komanda sentyabr ayının finalçısı olmaq uğrunda mübarizəyə başlayıblar.

İlk görüş "Romantik"lə "Kapital bank" arasında baş tutub. Gərgin mübarizə 5:4 hesabı ilə "Kapital bank"ın xeyrinə başa çatıb. İkinci seçim görüşündə isə "Norm sement" "Ağdaş"ı böyük xal fərqi ilə məğlubiyyətə uğradıb.

Final görüşü çərçivəsində keçirilən 2 oyunda "Kapital bank" və "Norm sement" birincilik uğrunda mübarizə aparıblar. Hər iki oyunda "Kapital bank" üstünlüyünü qoruyub və sentyabr ayının finalçısı adını qazanıb. Bununla, "Bilik kuboku" yarışı üzrə mövsümün finalında oynayacaq ilk komanda müəyyənləşib.

Heydər Əliyev Fondu, Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyinin dəstəklədiyi bu intellektual yarışın mövsüm finalı dekabrda baş tutacaq və burada sentyabr, oktyabr, noyabr və dekabr ayının qalibləri qarşılaşacaqlar. Yarışın qalibi "Bilik kuboku"nu əldə edəcək və qiymətli hədiyyələrlə mükafatlandırılacaq.